AZƏRBAYCAN RESPUBLİKASININ

SƏHİYYƏ NAZİRİ

ƏMR

№ 11

Bakı şəhəri "12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"ın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 223 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın icrasının təmin edilməsi, eləcə də talassemiya xəstəliyindən əziyyət çəkən xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyətinin və səmərəsinin artırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 11.01.2011 tarixli 11
nömrəli əmri ilə təsdiq edilmişdir

# "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Talassemiya daşıyıcılarının aşkar edilməsi və tibbi-genetik məsləhətlərin təşkili** | | | | |
| 1.1. | Talassemiya daşıyıcılarının aşkar edilməsi məqsədi ilə nikahdan qabaq müayinələrin təşkili | TYTŞ, RTM, ETHvəTİ, yerli tibb idarə və müəssisələri | 2011-2012 | |
| 1.2. | Talassemiya daşıyıcılarının skrininqinin aparılması məqsədi ilə Respublikanın şəhər və rayonlarında laboratoriyaların yaradılması | TYTŞ, ET HvəTİ, yerli tibb idarə və müəssisələri | 2011-2012 | |
| 1.3. | Respublika üzrə təsdiqedici testlərin aparılmasının B. Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda, Talassemiya Mərkəzində və 7 regional laboratoriyada ( Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Quba, Şirvan, Göyçay) təşkili | TYTŞ, ET HvəTİ, TM, SN-nin baş hematoloqu, yerli tibb idarə və müəssisələri | 2011 | |
| 1.4. | Talassemiya daşıyıcılığı aşkar olunan cütlərə tibbi-genetik məsləhətlərin verilməsi | ET HvəTİ, ETMGİ | mütəmadi | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | **2. Dölün prenatal diaqnostikası** | | | |
| 2.1. | Risk qrupuna daxil olan hamilə qadınlardan döl materialının əldə edilməsinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda təşkili | ETMGİ | 2011 | |
| 2.2. | Döl materiallarının molekulyar-genetik müayinəsinin B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda və Talassemiya Mərkəzində təşkili | ETHvəTİ, RTM | 2011 | |
| | **3. Talassemiyanın müalicəsinin təkmilləşdirilməsi** | | | |
| 3.1. | Talassemiyanın radikal müalicəsinin – sümük iliyi transplantasiyasının tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi | TYTŞ, RTM | 2012 – 2015 | |
| 3.2. | Talassemiyanın müasir müalicə üsullarının geniş istifadəsi (dəmirqovucu preparatların, eritropoezin stimulyatorlarının və s. tətbiqi) | RTM, ETHvəTİ | 2011 – 2015 | |
| 3.3. | Talassemiyanın fəsadlarının müasir diaqnostikasının təşkili (ürəkdə və digər daxili orqanlarda artıq dəmirin miqdarının təyin edilməsi) | TYTŞ, RTM, İvəTM | 2011 – 2012 | |
| 3.4. | Talassemiyalı xəstələrin və daşıyıcılarının registrinin yaradılması | SİM, RTM | 2011 – 2012 | |
| 3.5. | Talassemiyanın profilaktikası üzrə klinik protokolların, metodik vəsaitlərin və elmi ədəbiyyatın hazırlanması | İSİM, ETHvəTİ, RTM | 2011 – 2012 | |
| | **4. Talassemiyaya dair maarifləndirmə** | | | |
| 4.1. | Talassemiyaya dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | İSİM, RTM, ETHvəTİ | 2011 – 2015 | |
| 4.2. | Kütləvi informasiya vasitələri ilə talassemiyanın profilaktikasına dair məlumatların verilməsi | Mətbuat xidməti, RTM, ETHvəTİ | mütəmadi | "Savab dünyası" Talassemiya Mərkəzi |
| 4.3. | Orta məktəblərin biologiya üzrə tədris proqramına talassemiya haqqında qısa məlumatın daxil edilməsi | RTM, ETHvəTİ | 2012 | Təhsil Nazirliyi |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | **5. Kadr hazırlığı** | | | |
| 5.1. | Talassemiyanın profilaktikası, diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması (o cümlədən xarici ölkələrdə) | KETŞ, BƏŞ, ETHvəTİ, RTM | 2011 – 2015 | |
| 5.2. | Talassemiya üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ, | 2011 – 2015 | |